## AUDİT XİDMƏTİNİN GÖSTƏRİLMƏSİ BARƏDƏ
## *M Ü Q A V İ L Ə № 1 7 / A Z 2 6*

***Bakı şəhəri*** ***20 Aprel 2026 - ci il***

Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş AT/346-saylı 03 iyul 2025-ci il tarixli xüsusi icazəyə əsasən auditor fəaliyyət göstərən *"EVEREST AUDİT" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Şıxəliyev Eşqin Əziz oğlu* (bundan sonra «İcraçı» adlandırılacaq) və *"Həsən Holding" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Seyidov Azər Maşallah oğlu (etibarnamə əsasında Səfiyev Vüqar Vəli oğlu)* (bundan sonra «Sifarişçi» adlandırılacaq) audit xidmətinin göstərilməsi barədə aşağıdakı müqaviləni imzalayırıq.

### *I.* Müqavilənin məzmunu və tərəflərin cavabdehliyi

*1.1.* Sifarişçi tapşırır, İcraçı isə aşağıdakı işlərin yerinə yetirilməsini öz öhdəliyinə götürür:

1.1.1. Sifarişçinin Beynəlxalq Maliyyə Hesabatları Standartlarının tələblərinə uyğun tərtib edilmiş 01 yanvar 2025-ci il tarixdən 31 dekabr 2025-ci il tarixədək olan dövrdə maliyyə - təsərrüfat fəaliyyətini əks etdirən maliyyə hesabatlarının auditinin aparılması;

1.1.2. Auditin nəticəsinə dair Beynəlxalq Audit Standartlarına uyğun hesabat və auditor rəyinin bildirilməsi;

1.1.3. Sifarişçinin maliyyə - təsərrüfat fəaliyyətində aşkar edilən nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə təklif və tövsiyyələrin, yazılı və ya şifahi formada bildirilməsi.

Bunlarla əlaqədar olaraq tərəflərin cavabdehliyi aşağıdakı kimi bölüşdürülür:

***1.2 Sifarişçi öhdəsinə götürür:***

1.2.1. Bu müqavilənin 1.1. bəndində göstərilən işlərin yerinə yetirilməsinin təmin edilməsi məqsədi ilə Sifarişçi öz vəsaiti və gücü hesabına maddi dəyərlərinin, pul vəsaitlərinin, hesablaşmaların inventarizasiyasının tam aparılmasını, həmçinin normativ aktlarla müəyyən edilmiş qaydada inventarizasiyaların son nəticələrinin çıxarılmasını, vergi orqanları və banklarla üzləşmə aktları tərtib edilməsini təmin edir;

1.2.2. İcraçıya iş planını təmin edən mühasibat, maliyyə hesabatlarının və sənədlərinin, həmçinin işlərin vaxtında və tam icra edilməsi üçün lazımi məlumatları təqdim edir. Həmin sənədlərin və məlumatların olmaması bu müqavilənin 7.2. bəndində göstərilən qaydada ləğv edilməsi üçün əsasdır. Sifarişçinin təqsiri üzündən və ya onun təqsiri olmadan sənədlərin və digər məlumatların təqdim edilmə müddətinin uzadılması işlərin yerinə yetirilməsinə təsir edərsə, onda işlərin yerinə yetirilməsi üçün lazım olan vaxt müqavilənin müddətinin uzadılması üçün əsasdır;

1.2.3. İcraçının tələblərinə əsasən Sifarişçi bu müqavilədə nəzərdə tutulmuş işlərin yerinə yetirilməsi ilə əlaqədar olan məsələlər üzrə Sifarişçinin vəzifəli şəxslərindən izahatlar alınmasını, həmçinin arayışların və lazımi sənədlərin surətlərinin təqdim edilməsini;

1.2.4. İcraçı tərəfindən təqdim edilmiş hesablara uyğun olaraq ödəmələri vaxtında və tam ödənilməsini.

***1.3. İcraçı öhdəsinə götürür:***

1.3.1. Sifarişçinin təqdim etdiyi sənədlər və Azərbaycan Respublikasının qanunverici sənədlərinin tələblərinə uyğun olaraq maliyyə - təsərrüfat fəaliyyətinin 01 yanvar 2025-ci il tarixdən 31 dekabr 2025-ci il tarixədək olan dövr üzrə maliyyə hesabatlarının auditini həyata keçirmək;

1.3.2. Audit dövründə Sifarişçidən alınmış sənədlərin qorunub saxlanılmasını təmin etmək, və Sifarişçinin kommersiya sirrini onun yazılı razılığı olmadan üçüncü şəxslərə bildirməmək.

1.3.3. İcraçı müstəqil olaraq aparılacaq audit forma və metodlarını müəyyən edir.

1.3.4. Audit başa çatdıqdan sonra Sifarişçinin maliyyə hesabatları barədə auditor rəyini bildirmək;

1.3.5. Müqavilə üzrə işlərin təhvil vermə müddəti 31 may 2026-ci il tarixinə kimi müəyyənləşdirilir.

### *II.* İşlərin dəyəri və hesablaşma qaydaları

2.1. Tərəflərin razılığına əsasən, bu müqavilədə nəzərdə tutulan audit xidmətinin dəyəri 6 200 (altı min iki yüz manat) məbləğində müəyyənləşdirilir.

2.2. Sifarişçi, müqavilə üzrə işlərə başlayan zaman İcraçı tərəfdən təqdim edilən hesaba əsasən 3 (üç) təqvim günü müddətində müqavilənini dəyərini tam olaraq nəğd və ya nağdsız qaydada ödəyir.

### *III.* İşlərin təhvili və qəbulu qaydası

3.1. Müqavilə üzrə işlər qurtardıqdan sonra qanunvericilikdə müəyyən edilmiş qaydada auditor rəyinin İcraçı tərəfindən vəkil olunmuş şəxsə təhvili göndəriş sənədləri ilə həyata keçirilir.

3.2. İşi yerinə yetirən İcraçı, Sifarişçiyə yekun sənədləri, təhvil-qəbul aktını təqdim edir.

3.3. Təhvil-qəbul aktını alan Sifarişçi ən çoxu 5 iş günü müddətində aktla tanış olmalı və heç bir etirazı olmazsa, imza edib İcraçıya qaytarmalıdır.

3.4. Sifarişçinin əsaslandırılmış etirazı olarsa, bu barədə hər iki tərəfin imzası ilə akt tərtib edilərək, burada tamamlanacaq işlərin siyahısı və icra müddəti göstərilir.

3.5. Tamamlama işləri vaxtından əvvəl yerinə yetərsə, Sifarişçi onu vaxtından əvvəl qəbul edir.

### *IV.* Tərəflərin məsuliyyəti

4.1. Sifarişçi və İcraçı öhdəliyi tam və ya qismən yerinə yetirmədiyi halda qüvvədə olan qanunvericiliyə və bağlanmış müqavilənin şərtlərinə görə məsuliyyət daşıyır.

4.2. İcraçı yalnız auditə təqdim edilmiş sənədlər və informasiyalara görə auditi həyata keçirir.

### *V.* Məxfilik

5.1. Tərəflər bağlanmış müqavilənin məzmunu və müqavilənin bağlanması üçün zəruri olan sənədləri məxfi saxlamaqla, tərəf müqabilinin rəsmi yazılı razılığı olmadan üçüncü tərəfə heç bir məlumat vermir.

İcraçı Sifarişçinin yazılı razılığı olmadan aşkar edilən fakt və məlumatlardan hər hansı bir məqsəd üçün istifadə edə bilməz.

5.2. İcraçı onun təqsiri üzündən olmayan səbəblərə görə yayılmış məlumatlara görə və ümumi xarakterli məlumatların yayılması üçün məsuliyyət daşımır.

### *VI.* Mübahisələrin həlli

6.1. Bağlanmış müqavilə şərtləri üzrə tərəflər arasında hər hansı bir mübahisə və ya fikir ayrılığı danışıqlar vasitəsi ilə həll edilməzsə, bu halda mübahisələr Azərbaycan Respublikasının müvafiq məhkəməsində həll edilir.

### *VII.* Müqavilənin vaxtından əvvəl dayandırılması

7.1 Tərəflər bir-birlərini qabaqcadan rəsmi məktubla xəbərdar etməklə müqavilənin icrasının dayandırılmasını əsaslandırılmış (dayandırma səbəbləri və s.) şəkildə göstərməklə dayadıra bilər.

7.2. Tərəflərdən biri müqavilə şərtlərini pozması halında müqavilə şərtlərinin pozulmasını aşkar edən tərəf həmin pozuntular barədə qarşı tərəfə əsaslandırılmış şəkildə rəsmi məktub təqdim etməklə həmin pozuntuları və nöqsanları 3 (üç) gün müddətində aradan qaldırılmasını tələb edə bilər.

7.3. Pozuntulara və nöqsanlara yol vermiş tərəf bu barədə qarşı tərəfdən rəsmi məktub aldığı təqdirdə həmin pozuntuları və nöqsanları 3 (üç) gün müddətində aradan qaldırılmazsa qarşı tərəf müqavilənі bir tərəfli qaydada dayandıra bilər.

7.4. Müqavilənin vaxtından qabaq dayandırılması halında İcraçı tərəfindən pozuntusuz və nöqsansız görülən işlərə görə işlərin dəyəri Sifarişçi tərəfindən ödənilməlidir.

### *VIII.* Fors-major şərtləri

8.1. Fors-major şəraitində müqavilə üzrə götürülən öhdəliyin yerinə yetirilməsi qeyri-mümkün ola bilər.

8.2. Fors-major şəriaitinin mövcud olması ilə əlaqədar olaraq tərəflərdən biri ekstremal şəraitdədirsə və müqavilə öhdəliyini vaxtında yerinə yetirə bilmirsə, fors major şəraiti qurtaranadək öhdəliyin yerinə yetirilməsindən o halda azad edilir ki, ikinci tərəfə dərhal fors-major şəraitinin mövcudluğuna dair mümkün olduğu halda məlumat vermiş və rəsmi məktub göndərmiş olsun.

### *IX.* Digər şərtlər

9.1. İcraçı müqavilə öhdəliyini yerinə yetirmək məqsədi ilə lazım olan auditorları, mütəxəssis və ekspertləri Sifarişçinin razılığı olduqdan sonra cəlb edə bilər.

9.2. İcraçı cəlb edilən üçüncü şəxslərin xidmətlərinə və Sifarişçinin kommersiya sirri sayılan məxfi

məlumatlarının qorunmasına görə məsuliyyət daşıyır.

9.3 Müqavilədə yerinə yetirilən işin dəyəri yalnız bu müqavilə üçün olmaqla, gələcəkdə bağlanılacaq eyni adlı ikinci müqaviləyə şamil edilmir və rəqabət üçün istifadə etmək olmaz.

**X. Tərəflərin ünvanı və rekvizitləri:**

*İcraçı: "EVEREST AUDİT" Məhdud Məsuliyyətli Cəmiyyəti*
VÖEN: 1507243791
H/h: AZ46AIIB400600K9441822250229
Bank: “Kapitalbank” ASC KOB Mərkəz filialı
Kodu: 201412
VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
SWIFT : AIIBAZ2XXX

*Sifarişçi: “Həsən Holding” Məhdud Məsuliyyətli Cəmiyyəti*
VÖEN: 1700116471
H/h: AZ23AIIB40060019440429057107
Bank: KapitalBank ASC,Port Baku filialı
Kodu: 201973
VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
SWIFT : AIIBAZ2XXXX

Bu müqavilə iki nüsxədə tərtib edilib. Nüsxələrin hər ikisi autentik olaraq eyni hüquqi qüvvəyə malikdirlər. Nüsxələrdən biri İcraçıda qalır, digəri isə Sifarişçiyə təqdim olunur.

İcraçı: ____________________
“EVEREST AUDİT” MMC-nin direktor-auditoru
*Şıxəliyev Eşqin Əziz oğlu*

M.Y.

Sifarişçi: ____________________
“Həsən Holding” MMC-nin direktoru
Seyidov Azər Maşallah oğlu (etibarnamə əsasında Səfiyev Vüqar Vəli oğlu)

M.Y.